

# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

18 dekabr 2025-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 49 (3761)


# Humanizm manifesti

**“Konstitusiya və Suverenlik İli”ndə Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçiriləcək amnistiya minlərlə ailəyə ümid və sevinc gətirəcək.**



## Amnistiya mərhəmət ənənələrinə sadiqlikdir

Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı möhtəşəm Zəfər xalqımızın öz gücünə inamını daha da möhkəmləndirməklə yanaşı, müstəqil dövlətçiliyimizi yeni, keyfiyyətcə fərqli mərhələyə yüksəldib. Bu tarixi Qələbənin beşinci ildönümünü “Konstitusiya və Suverenlik İli” kimi qeyd etdiyimiz bir dövrdə Prezident İlham Əliyevin amnistiya elan edilməsi təşəbbüsü ilə çıxış etməsi dövlətin humanist mahiyyətinin növbəti bariz təzahürü kimi dəyərləndirilir. On minlərlə ailənin sevincinə səbəb olacaq bu addım Prezident İlham Əliyevin siyasətində insan amilinin prioritet olduğunu bir daha təsdiqləyir. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu müasir Azərbaycan dövlətinin ərazi bütövlüyü və suverenliyi Prezident İlham Əliyevin qətiyyətli siyasəti və siyasi-hərbi diplomatik qələbələri nəticəsində tam təmin edilib. Ümummilli liderin rəhbərliyi ilə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası bu gün ölkəmizin bütün ərazilərində ali hüquqi qüvvəyə malikdir. 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabrında həyata keçirilən antiterror tədbirləri yalnız hərbi-siyasi deyil, eyni zamanda sosial və hüquqi müstəvidə də mühüm dəyişikliklərə yol açıb. Məhz bu baxımdan “Konstitusiya və Suverenlik İli”ndə amnistiya təşəbbüsünün irəli sürülməsi xüsusi rəmzi məna daşıyır.

Prezident İlham Əliyev suverenliyimizin bərpasını və Konstitusiyanın tam tətbiqini tarixi qələbə kimi qiymətləndirərək, humanizm və mərhəmət ənənələrinə sadiq qalıb. Amnistiya təşəbbüsü cəzadan azad etmənin tərbiyəvi əhəmiyyətinə inamın, cəmiyyətə yenidən inteqrasiya olunmağa şans verilməsinin göstəricisidir.

Layihəyə əsasən, Azərbaycanın ərazi bütövlüyünün qorunması uğrunda aparılan döyüşlərdə, o cümlədən Vətən müharibəsində və antiterror əməliyyatlarında iştirak etmiş şəxslər, habelə bu proseslərdə həlak olan və ya itkin düşənlərin yaxın qohumları, mülki əhaliyə qarşı təxribatlar nəticəsində əlil olmuş şəxslər, qadınlar, yaşı 60-dan yuxarı olanlar, yetkinlik yaşına çatmamış şəxslər və digər kateqoriyalar cəzadan və ya cinayət məsuliyyətindən azad edilə bilərlər. Eyni zamanda, böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə məhkum olunmuş şəxslərin cəzalarının azaldılması və ya tamamilə aradan qaldırılması da nəzərdə tutulur. Milli Məclisə təqdim edilən amnistiya aktının əhatə dairəsinə görə ölkə tarixində ən geniş amnistiya olacağı gözlənilir. İlkin proqnozlara əsasən, sənəd 20 mindən çox şəxsə şamil edilə bilər.

> *Dövlət siyasətinin mərkəzində humanizm prinsipləri dayanır*

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətində mərhəmət və humanizm əsas prinsiplərdən biridir. Əlamətdar tarixi günlərdə əfv və amnistiya aktlarının imzalanması artıq xoş ənənəyə çevrilib. 2021-ci ildə Zəfər Günü münasibətilə qəbul edilən amnistiya aktı da bunun bariz nümunəsi idi.

Ümumilikdə, əfv və amnistiya qərarları insan hüquqlarının etibarlı təminatına, sosial ədalətin möhkəmləndirilməsinə xidmət edir. Bu addımlar cəza çəkmiş şəxslərin islah olunaraq cəmiyyətə qayıtmasına, normal həyata inteqrasiya edilməsinə şərait yaradır.

# Tarixi-geosiyasi dəyişikliklər

## Azərbaycan Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin qarantıdır

Regionumuz geosiyasi yeniləşmənin növbəti mərhələsinə qədəm qoyub. Bununla Azərbaycanın İkinci Qarabağ müharibəsində əldə etdiyi qələbənin təsiri ilə formalaşan regional geosiyasi yeniləşmənin bir mərhələsi başa çatıb. "Birinci mərhələ" adlandırılan dövr 2020-2025-ci illəri əhatə edir. Regiondaxili geosiyasi mühitdə onun başlıca əlamətinə diqqət yetirməliyik. Belə ki, Azərbaycanın qalib gəldiyi 44 günlük Vətən müharibəsindən sonra Cənubi Qafqazda sülh, sabitlik, əməkdaşlıq və təhlükəsizliyin yeni prinsipləri formalaşdırılıb. Həmin prinsiplərə əsaslanan münasibətlərin yeni sisteminin təsiri ilə Cənubi Qafqaza yönələn kənar pozucu təsirlər, faktiki olaraq, neytrallaşdırılıb. Bununla geosiyasi kontekstdə tarixi dəyişiklik baş verib: Cənubi Qafqazın geosiyasi konfiqurasiyası regionun maraqları üzərində bərqərar olmağa başlayıb. Təşəbbüsün regiondaxili proseslərin nüfuzetmə potensialına keçməsi növbəti mərhələ üçün baza yaradıb.

İkinci mərhələ 2025-ci ilin payızından başlayıb. İndiki mərhələnin əsas əlaməti Azərbaycanın Cənubi Qafqazın lider dövləti kimi regional təhlükəsizlik arxitekturasını regionlararası aktor statusunda daha geniş geosiyasi məkanın konfiqurasiyasına sintez etməsidir. Prosesin ümumi geosiyasi əlamətləri sırasında "C6+1" formatının yaradılması və Zəngəzur dəhlizinin Orta dəhliz kontekstində regional maraqlarla qlobal maraqların uyğunlaşdırılması funksiyasını stimullaşdırır.

> **Azərbaycan Cənubi Qafqazın müasir tarixində ilk dövlətdir ki, regional əməkdaşlıq və təhlükəsizlik aspektlərini özündə ehtiva edən vahid "Cənubi Qafqaz evi"nin arxitekturasını yaradır.**

Bu, yeni geosiyasi transformasiyanın memarı Azərbaycan Prezidenti İlham Əliyevdir. Dövlət başçısının təşəbbüsləri sayəsində həyata keçirilən müxtəlif əməkdaşlıq və təhlükəsizlik formatları beşillik gərgin mübarizədən sonra dünyanın böyük gücləri tərəfindən qəbul edilib.

İkincisi, Azərbaycan Cənubi Qafqazın müasir tarixində ilk dövlətdir ki, regional əməkdaşlıq və təhlükəsizlik aspektlərini özündə ehtiva edən vahid "Cənubi Qafqaz evi"nin arxitekturasını yaradır. İndi Gürcüstanın Azərbaycan və Ermənistana və Ermənistanın Azərbaycan və Gürcüstana münasibətinin dinamikası hər iki dövlətin (yəni, Gürcüstan və Ermənistanın) Zəngəzur dəhlizinə və regional tranzit-nəqliyyat təşəbbüslərinə olan münasibətilə ölçülür. Bu, Azərbaycanın regionda yaratdığı yeni münasibətlər sisteminin motivəedici parametridir.

# Dövlət başçısı Fəxri xiyabanda

## Ümummilli liderin məzarı ziyarət olunub

Dekabrın 12-də Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Fəxri xiyabana gələrək ümummilli lider Heydər Əliyevin məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev ümummilli liderin məzarı önünə əklil qoyub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Daha sonra Prezident ailə üzvləri ilə birlikdə akademik Zərifə xanım Əliyevanın xatirəsini ehtiramla anıb, məzarı üzərinə gül dəstələri düzüb.

# Prezident rəsmi səfərə gedib

## Azərbaycan və BƏƏ prezidentləri görüşüblər

Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın dəvəti ilə bu ölkəyə səfərə gedib.

Dekabrın 17-də Əbu-Dabidə keçirilən görüşdə prezidentlər əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıblar. Daha sonra dövlət başçıları “Gələcəyin oyunları 2025” adlı qlobal idman turnirinin açılış mərasimində iştirak ediblər.

# Əməkdaşlıq təsdiqləndi

## Müvafiq saziş Prezident tərəfindən imzalanıb

Prezident İlham Əliyev “Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Qazaxıstan Respublikasının Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş”in təsdiq edilməsi barədə Fərman imzalayıb.

Fərmana əsasən, Saziş qüvvəyə mindikdən sonra Azərbaycanın Daxili İşlər Nazirliyi onun müddəalarının icrasını təmin etməlidir. Xarici İşlər Nazirliyinə isə Qazaxıstan tərəfinə rəsmi bildiriş göndərilməsi tapşırılıb.

Saziş iki ölkə arasında hüquq-mühafizə sahəsində əməkdaşlığın inkişafına xidmət edir.

# Prezidentdən yubiley təbriki

## Əməkdaşlıq məsələləri də müzakirə olunub

Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 11-də Türkmənistan Xalq Məslələtinin sədri Qurbanqulu Berdiməhəmmədova telefon zəngi edib. Dövlətimizin başçısı Türkmənistanın daimi bitərəfliyinin tanınmasının 30-cu ildönümü münasibətilə təbriklərini çatdırıb.

Qurbanqulu Berdiməhəmmədov ümummilli lider Heydər Əliyevin xatirəsini dərin hörmətlə andığını bildirib, onun ölkələrarası münasibətlərin inkişafındakı rolunu vurğulayıb.


Hər bir müraciət çağırışdır..................2

Rəqəmsal xidmətlər genişlənir...........2

Narkoman cinayətkara çevrilir............3

Gənclər üçün uğurlu gələcək.............4

# Respublika Xəbərləri

### Hərbi əməkdaşlıq gücləndirəcək

Azərbaycan ilə Türkiyə qarşılıqlı hərbi təhlükəsizliyi möhkəmləndirəcək. Bu məsələ ilə bağlı Milli Məclis "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Türkiyə Respublikasının Milli Müdafiə Nazirliyi arasında qarşılıqlı hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə dair Anlaşma Memorandumu"nu təsdiqləyib. Sənəd 2025-ci il iyulun 22-də İstanbul şəhərində imzalanıb.

### Sosial ödənişlər genişlənir

Bu ilin yanvar-noyabr aylarında 521 min nəfər sosial müavinət, 406 min nəfər Prezidentin aylıq təqaüdü ilə təmin edilib. Həmin dövrdə əhaliyə sosial müavinətlər üzrə 1 milyard 66 milyon manat, Prezident təqaüdləri üzrə 685 milyon manat ödənilib.

### İnvestisiya yatırımında artım var

Bu ilin ilk 9 ayında Azərbaycan iqtisadiyyatına cəlb olunan birbaşa xarici investisiyalar 4 milyard 736 milyon dollardan artıq olub. Bu isə ötən ilin eyni dövründəki göstəriciyə nisbətən 213 milyon 485 min dollar və ya 4.7 faiz çoxdur.

### Əhalinin gəlirləri artıb

Dövlət Statistika Komitəsindən bildirilib ki, cari ilin yanvar-noyabr aylarında ölkə əhalisinin nominal gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 8,1 faiz artaraq 80 milyard 747,2 milyon manat və ya hər nəfərə orta hesabla 7883,4 manat olub. Əhalinin sərəncamında qalan gəlirləri 70 milyard 905,8 milyon manat təşkil edib.

### Qarabağa təhsil də qayıdır

Azad edilən ərazilərdə təhsil alanların sayı 3 minə yaxınlaşır. Elm və təhsil naziri Emin Əmrullayevin sözlərinə görə, işğaldan azad olunan ərazilərdə 30-dək təhsil müəssisəsi fəaliyyət göstərir. Bura həm ümumtəhsil müəssisələri, həm də bağçalar daxildir. Növbəti ildə Qarabağ Universitetinə 1200-1500 tələbə qəbulu planlaşdırılır.

### Təhlükəsizlik qaydaları izah olunub

Şuşa şəhərində, Ağdam, Füzuli, Xocalı və Laçın rayonlarında yanğın təhlükəsizliyi ilə bağlı maarifləndirici görüşlər keçirilib. Dövlət Yanğın Nəzarəti Xidmətinin əməkdaşları vətəndaşlara zəruri yanğın təhlükəsizliyi qaydalarını ətraflı izah edərək, onlara əyani vəsaitlər təqdim ediblər.

### Böyük qayıdış davam edir

Cəbrayılın Horovlu kəndinə 22 ailə olmaqla, 85 nəfər köçürülüb. Xocavəndin Sos kəndinə 21 ailə, 94 nəfər qayıdıb. Xocalı rayonunun Təzəbinə kəndinə 10 ailə - 44 nəfər, Seyidbəyli kəndinə isə 10 ailə - 41 nəfər köçürülüb. Ailələrə mənzillərin açarları təqdim olunub.

### İqtisadi fəal əhalinin sayı açıqlanıb

Bu il dekabrın 1-nə olan vəziyyətə görə Azərbaycanda iqtisadi fəal əhalinin sayı 5 milyon 383.2 min nəfər olub. Onlardan 5 milyon 104.5 min nəfəri məşğul əhalini təşkil edib. Cari ilin noyabrın 1-i vəziyyətinə muzdla çalışan işçilərin sayı 1 milyon 782.4 min nəfər olub.

### Xankəndidə bayram yarmarkası

31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə Xankəndi şəhərində "Qış nağılı" yarmarkası keçiriləcək. Zəfər meydanında təşkil ediləcək sayca 2-ci yarmarkada, müəssisə və şirkətlər, həmçinin fərdi şəxslər tərəfindən yarmarkaya məhsullar çıxarılacaq.

### Zorakılıq qurbanlarının bazası yaradılacaq

Məişət zorakılığının qurbanları barədə elektron məlumat bazası yaradılacaq. Məlumat sistemində mərkəzi və yerli icra hakimiyyətləri orqanları tərəfindən qurbanlara göstərilən dəstək xidmətləri, təhlükəsizlik və preventiv tədbirlər haqqında məlumatlar yerləşdiriləcək. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsindən bu barədə məlumat verilib.

### Bakı idman paytaxtı seçilib

"Dünya İdman Paytaxtı" titulu rəsmi olaraq Monakodan Bakıya təhvil verilib, bununla da Azərbaycan paytaxtı 2026-cı il üzrə Dünya İdman Paytaxtı elan olunub. Rəsmi təqdimetmə mərasimi də keçirilib. Gənclər və İdman Nazirliyindən bildirilib ki, bununla əlaqədar yeni ildə Bakıda bir çox beynəlxalq tədbirlərin keçirilməsi nəzərdə tutulub.

# Fəxri xiyabanda anım ziyarəti

## Daxili İşlər Nazirliyinin şəxsi heyəti ümummilli liderin əziz xatirəsini yad edib



**Dekabrın 12-də Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 22 il ötdü.**

Xalqımız ağır və taleyüklü dönəmlərdə ümummilli liderin xilaskarlıq missiyasını dərin minnətdarlıqla xatırlayır. Məhz onun rəhbərliyi illərində Azərbaycan qarşılaşdığı təhlükələrdən xilas oldu, müstəqilliyimizin əbədiliyi üçün möhkəm təməllər qoyuldu. Hər il dekabrın 12-də minlərlə insanın Fəxri xiyabanda ümummilli liderin məzarını ziyarət etməsi xalqın dahi övladının xatirəsinə əbədi ehtiramın bariz ifadəsidir.

Anım günü ilə əlaqədar Daxili İşlər Nazirliyinin şəxsi heyəti Fəxri xiyabanda ulu öndərin məzarını ziyarət edib, önünə gül dəstələri qoyub, əziz xatirəsini böyük ehtiramla anıb.

Həmin gün ziyarətdə səhər saatlarından başlayaraq dövlət və hökumət rəsmiləri, ziyalılar, ictimai xadimlər, polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları, gənclər, Azərbaycanın müxtəlif rayon və şəhərlərindən gələn vətəndaşlar da iştirak ediblər.

Ümummilli liderin məzarı önünə tər çiçək dəstələri qoyulub, ruhuna dualar oxunub.

# Hər bir müraciət çağırışdır

## Polisə müraciət imkanları şəffaflıq və əlçatanlıq nümunəsidir

**Daxili İşlər Nazirliyinə daxil olan müraciətlərin operativ şəkildə qəbul edilməsi və cavablandırılması polis–vətəndaş münasibətlərində güclü qarşılıqlı etimad mühitini daha da möhkəmləndirib. Müraciətlərin sürətli icrası, onların təhlili və cavablandırılmasının təmin edilməsi DİN rəhbərliyinin yerli polis orqanları qarşısında qoyduğu əsas tələblərdəndir.**

Daxili İşlər Nazirliyi hər bir müraciəti vətəndaşın təxirəsalınmaz kömək və dəstək çağırışı kimi qəbul edir. Bunun üçün müxtəlif üsullar, vasitələr və imkanlar da yaradılıb. Vətəndaşlar polis orqanlarına müraciətlərini həm ənənəvi üsullarla, həm də rəqəmsal platformalar, mobil tətbiq və sosial şəbəkə hesabları ilə asanlıqla yönəldə bilirlər. Polis dövrün tələbinə uyğun olaraq sosial media resurslarından müraciətlərin qəbulunda səmərəli şəkildə istifadə edir. Cari ilin yanvar-noyabr ayları ərzində DİN-in sosial şəbəkə səhifələrinin mesaj bölməsinə ümumilikdə 41 mindən artıq sorğunun daxil olması və hər birinə cavab verilməsi bunu təsdiqləyir. Onların məzmunu cinayətkarlıqla mübarizə, qanunvericilik məsələləri, yol hərəkəti təhlükəsizliyi, ictimai asayiş, əməkdaşların fəaliyyəti, vakansiyalar kimi müxtəlif sahələri əhatə edir.

"E-Polis" mobil tətbiqinin istifadəyə verilməsi isə polis xidmətlərinin rəqəmsallaşdırılması istiqamətində atılan əsas addım oldu. Hazırda bu mobil tətbiq istifadəçilərinin sayı 600 mini keçir ki, istifadəçilər xüsusi müraciətə ehtiyac qalmadan polisin xidmətlərindən yararlana bilirlər.

Nazirliyin müraciətlərin daxil olması üçün ən vacib kanallarından biri hüquq pozuntusu və cinayət faktı ilə bağlı şikayətlərin dərhal qeydə alınıb nəzarətə



götürüldüyünə görə yüksək ictimai inam qazanan "102" Xidməti – Zəng Mərkəzidir. Bu ilin yanvar – noyabr ayları ərzində bu mərkəzdə 2 milyon 518 min 452 zəngə cavab verilib. Onlardan 1milyon 171 min 971-i müraciət kimi qeydiyyata alınaraq araşdırılması üçün aidiyyəti üzrə yönləndirilib.

Yaradıldığı gündən etibarən bu xidmət vətəndaşların təcili hüquqi müdaxilə tələblərini böyük bir sistemi dəqiqələr içində hərəkətə gətirməklə təmin edir. Günün istənilən saatında daxil olan zənglərə orta hesabla 3–6 saniyə ərzində cavab verilir. Təxirəsalınmaz hallarda buradan aidiyyəti üzrə məlumat ötürülür və bununla təhlükəli vəziyyətlərə operativ müdaxilə edilir, kiminin canı, əmlakı, kiminin isə hüquqları qorunur.

Daxili İşlər Nazirliyi vətəndaşların ənənəvi qəbul praktikasını da davam etdirir. Azərbaycan Prezidentinin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Nazirliyin rəhbərliyi hər ay bölgələrdə vətəndaşlarla qəbul günləri keçirir. Bu il daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov 70 şəhər və rayonu əhatə edən görüşlərdə 6910 vətəndaşı şəxsən dinləyib və onların problemlərinin əksəriyyəti yerindəcə həllini tapıb.

Bundan əlavə, yerli polis orqanlarının rəisləri də mütəmadi olaraq vətəndaş qəbulları keçirirlər. Yeri gəlmişkən, polis rəislərinin qəbullarına "E-Polis" mobil tətbiqindən istifadə etməklə də yazılmaq mümkündür.

Mövcud reallığa əsasən demək olar ki, Daxili İşlər Nazirliyində vətəndaş müraciətlərinin qəbulu artıq rəqəmsallaşdırılıb. Bununla yanaşı, ənənəvi qəbul praktikasının qorunub saxlanılması ilə rəqəmsal müraciət imkanlarından istifadə etməkdə çətinlik çəkənlərə də polisin vəzifəli şəxslərinə birbaşa müraciət etmək imkanı yaradılıb.

Təbii ki, müraciət kanallarının belə müxtəlifliyi ümumilikdə prosesin şəffaflığını və əlçatanlığı təmin edir. Bu isə hər bir müraciəti təxirəsalınmaz kömək və dəstək çağırışı kimi qəbul edən polisin öz prinsiplərinə sadiqliyini göstərir.

*Rəşad Mehtiyev*

# Rəqəmsal xidmətlər genişlənir

## "E-Polis"də yeniliklər var

**Daxili İşlər Nazirliyi tərəfindən rəqəmsal mühitə çıxış imkanları hər ötən gün daha da təkmilləşdirilir və təqdim olunan elektron xidmətlərin dairəsi genişləndirilir.**

### Hüquqi şəxslər üçün də imkanlar yaradılıb

Bundan sonra hüquqi şəxslər də "E-Polis" mobil tətbiqi və e-xidmet.mia.gov.az elektron xidmət portalı vasitəsilə nəqliyyat vasitələrinə dair əsas əməliyyatları daha rahat şəkildə rəqəmsal mühitdə idarə edə biləcəklər.

Yeni sistem hüquqi şəxslərin platformaya təhlükəsiz girişini təmin etməklə, onların mülkiyyətlərində olan nəqliyyat vasitələrinə dair bütün məlumatları vahid paneldə görməsinə şərait yaradır. Balansda olan nəqliyyat vasitələrinin siyahısına baxış, yeni vasitələrin əlavə edilməsi, cərimələrin real vaxt rejimində izlənməsi, inzibati sorğuların monitorinqi və elektron yol vərəqələrinin hazırlanması kimi funksiyalar istifadəçilərə təqdim olunur.

Bu yeniliklər həm idarəetməni asanlaşdırır, həm xidmətlərin əlçatanlığını artırır, həm də proseslərin tam rəqəmsal mühitə daşınmasını təmin edir.

### Yaşayış ünvanı arayışının alınması artıq daha sürətlidir

Vətəndaşlar artıq ipoteka, alqı-satqı, qeydiyyat və digər proseslər zamanı tələb olunan yaşayış ünvanı arayışını əlavə sənəd toplamadan və fiziki müraciət etmədən elektron qaydada əldə edə bilərlər. Mobil tətbiqin yeni xidməti bu prosesləri daha da sadələşdirir.

Xidmətə daxil olduqda sistem avtomatik şəkildə istifadəçinin adına rəsmi reyestrlərdə qeydiyyatda olan mülkiyyət ünvanlarını təqdim edir. Vətəndaş yalnız müvafiq ünvanı seçərək sorğunu göndərir və arayış bir iş günü ərzində operator tərəfindən yoxlanılaraq şəxsi kabinetə yüklənir. Elektron imza ilə təsdiqlənən bu arayışlar hüquqi qüvvəyə malikdir və tam etibarlıdır.

Bu xidmət həm də e-xidmet.mia.gov.az portalında istifadəyə açıqdır.

### "E-Polis"də süni intellekt

Müasir dövrün inqilabi yeniliklərindən olan süni intellekt artıq "E-Polis" mobil tətbiqinə inteqrasiya edilib. Bundan sonra vətəndaşlar onları maraqlandıran məsələlər barədə ünvanladıqları suallara süni intellekt vasitəsilə operativ şəkildə cavab ala biləcəklər.

Yeni çat-bot funksionallığı ilkin olaraq sınaq məqsədilə "E-Polis" platformasında və "e-xidmet.mia.gov.az" elektron xidmətlər portalında istifadəyə verilib. Vətəndaşlar müxtəlif xidmətlər haqqında tez-tez ünvanlanan suallara süni intellektin köməkliyi ilə dərhal cavab ala biləcəklər. Xidmətlərin izahı, müraciət qaydaları, tələb olunan sənədlər, istifadə prosesinə dair məlumatlar və digər ümumi suallar çat-botun cavab bazasına daxildir. Bu isə istifadəçilərin əlavə izahat axtarışına ehtiyac duymadan məlumatla təmin edilməsinə və müraciət prosesinin daha anlaşıqlı olmasına şərait yaradır.

Sınaq dövründə əldə olunan nəticələr çat-botun funksiyalarının genişləndirilməsi üçün baza rolunu oynayacaq. Toplanacaq rəy və müşahidələr əsasında gələcək mərhələlərdə daha ağıllı cavablandırma mexanizmlərinin əlavə olunması, səsli müraciət imkanları və ehtiyacdan asılı olaraq xidmətin yönləndirməsi funksiyalarının inkişaf etdirilməsi nəzərdə tutulur.

Bu yeniliyin tətbiqi vətəndaşların elektron xidmətlərə daha sürətli, rahat və fasiləsiz çıxışını təmin edəcək, əlavə vaxt itkisinin qarşısını alacaq və məlumat əldə etmə prosesini sadələşdirməklə vətəndaş məmnunluğunun daha da yüksəldilməsinə effektiv təsir göstərəcək.

# Sağlam gənclik, sağlam gələcək

## Maarifləndirici tədbirlər geniş vüsət alıb

Bakı şəhər Baş Polis İdarəsinin İctimai Təhlükəsizlik İdarəsi Xəzər rayonundakı 120 saylı məktəbdə və Sabunçu rayonunun 11 saylı internat məktəbində "Narkomaniya və erkən nikaha yox deyək!" mövzusunda maarifləndirici tədbirlər təşkil edib.

Tədbirlərdə icra hakimiyyəti nümayəndələri, həkim və psixoloqlar iştirak edib.

Polis polkovniki İbrahim İsmayılov gənclərin zərərli vərdişlərdən qorunması, sağlam həyat tərzinə təşviqi və erkən nikahın fəsadları barədə məlumat verib.

Şagirdlərə narkomaniyanın fiziki, psixoloji və sosial təhlükələri, erkən nikahın isə təhsilə və gələcək həyat planlarına mənfi təsiri izah olunub.

Gənclərə sağlam həyat tərzinə üstünlük vermələri tövsiyə edilib.





Bölgələrdə də polis əməkdaşları tərəfindən təhsil müəssisələrində maarifləndirmə tədbirləri davam etdirilir.

Mingəçevir Şəhər Polis Şöbəsinin təşkilatçılığı ilə 10 və 6 saylı, Astara Rayon Polis Şöbəsinin təşəbbüsü ilə Burzubənd, Biləsuvar rayon Xırmandalı kəndin 2 nömrəli tam orta məktəbində şagirdlərlə anoloji görüşlər keçirilib.

Quba Rayon Polis Şöbəsinin əməkdaşları Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialının tələbələri ilə maarifləndirici söhbət aparıblar. Zərdab Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə Heydər Əliyev mərkəzində narkomaniya ilə mübarizə, gənclərin zərərli təsirlərdən qorunması və ictimai təhlükəsizlik mövzularını əhatə edən maarifləndirici tədbir keçirilib.

Qeyd edək ki, belə görüşlərdə narkomaniya ilə yanaşı həmçinin kiberdələduzluq halları, sosial şəbəkələr və onlayn platformalarda qarşılaşa biləcəkləri təhlükələr barədə gənclərə məlumatlar verilir, praktiki nümunələrlə izahlar təqdim olunur.

# Qanunsuz silah hamıya tuşlanır

## Polis tədbirlərlə ağır cinayət hadisələrini qabaqlayır

Qanunsuz saxlanılan odlu silah-sursatın cəmiyyət üçün nə qədər ciddi təhlükə yaratdığını çoxsaylı faktlar təsdiqləyir. Onlar bir qayda olaraq nəzarətdən kənarda qaldığına görə qəflətən ağır nəticələrə səbəb olur, ictimai təhlükəsizliyi bir anda risk altına salır. Belə silahlar ictimai asayişə birbaşa təhdiddir.

Daxili İşlər Nazirliyinin əməkdaşları tərəfindən aparılan əməliyyat və profilaktik tədbirlər də məhz bu təhlükənin qarşısının alınmasına yönəlib. Son olaraq paytaxtda, ölkənin müxtəlif rayonlarında və işğaldan azad olunmuş ərazilərdə keçirilən tədbirlər zamanı 14 avtomat silahı, 1 pulemyot, 3 tapança, 2 qumbara, 14 tüfəng, 30 patron darağı və 590 ədəd müxtəlif çaplı patronun aşkar edilərək götürülməsi silahla törədilə biləcək cinayətlərin qarşısını vaxtında alan növbəti uğurlu tədbir kimi qiymətlidir.

### Qanunsuz silah cinayətkar niyyətdən xəbər verir

Qanunsuz silah saxlayan şəxsin bu silahı gizlətməsinin hansı məqsədlərə xidmət etdiyi aydındır. Heç kim pulemyotla ova çıxmır, göldə ördək vurmaq üçün avtomat götürmür, qaçan ov heyvanına əl qumbarası atmır. Belə silahlar insan həyatına qarşı yönəlmiş konkret cinayətkar niyyətdən xəbər verir. Məişət zəminində baş verən adi münaqişələr belə odlu silahın iştirakı ilə faciə ilə nəticələnə bilər. Təcrübə də göstərir ki, hadisənin ağırlıq dərəcəsini kəskin şəkildə artıran əsas amil məhz silahdır.

Avstraliyanın Sidney şəhərində silahın hansı fəsadlara yol aça bildiyini açıq şəkildə bir daha gördük. Çimərlikdə baş verən hücum nəticəsində dinc insanların həlak olması silahın nəzarətsiz qalmasının nə qədər ağır nəticələr doğurduğunu növbəti dəfə sübut etdi.

Cinayətkarlıqla mübarizədə əsas fəaliyyət sahəsi kimi qanunsuz silahların aşkar edilərək götürülməsi buna görə güclü ictimai dəstək tələb edir. Silah bir nəfərin şəxsi məsuliyyəti deyil, o hər kəsə tuşlanır, hamını təhdid edir. Deməli, mübarizə də birlikdə aparılmalıdır. Tapılan silah-sursatın könüllü təhvil verilməsi, aşkarlandığı yer barədə polisin dərhal məlumatlandırılması bu mübarizənin kəsərini artırır. Polis də buna görə profilaktik tədbirlərə xüsusi önəm verir ki, risk hələ ilkin mərhələdə olarkən zərərsizləşdirilsin.

Azərbaycanın son illər dünyada yüksək daxili təhlükəsizlik reytinqinə sahiblənməsinin bir səbəbi də odur ki, qanunsuz silah-sursatın aşkarlanaraq götürülməsində polis həyati əhəmiyyətli fəaliyyət göstərir. Hər bir silahın dövriyyədən çıxarılması insanların həyat və təhlükəsizlik hüququnun qorunması deməkdir. Bu istiqamətdə aparılan ardıcıl və məqsədyönlü tədbirlər də ölkəmizin təhlükəsizlik reytinqini keçən hər il bir qədər də yüksəldir.

*Rəşad Mehtiyev*

# Narkoman cinayətkara çevrilir

## Asılılıq dərinləşdikcə, istifadəçi daha ağır cinayətlərə sürüklənir

Narkomaniya yalnız tibbi problem deyil, həm də cəmiyyətin sosial sabitliyini, təhlükəsizliyini və hüquqi mühitini sarsıdan kriminogen faktordur. Müasir kriminologiyada narkotik vasitələrdən asılılıq cinayətkarlığın artmasına təsir edən ən güclü katalizatorlardan biri kimi qiymətləndirilir. Bu əlaqə təkcə fərdin psixoloji vəziyyətindən deyil, həm də kriminal şəbəkələrin fəaliyyətindən qaynaqlanır.

Narkotik istifadəçisi müəyyən mərhələdən sonra maddəni almaq üçün daimi və yüksək maliyyə ehtiyacı ilə üzləşir. Bu ehtiyac artıq insanın adi gəlir imkanlarını üstələdiyinə görə, asılı şəxs oğurluq, dələduzluq, quldurluq, soyğunçuluq kimi cinayətlərə əl ata bilir. Statistik təhlillərə əsasən, narkomaniya ilə mübarizədə saxlanılan şəxslərin böyük hissəsi eyni zamanda müxtəlif mülkiyyət cinayətlərində də iştirak edir. Bu, narkomaniyanın birbaşa səbəb olduğu cinayətdir.

### Kriminal dövriyyə ilə təmas, dolayı cinayətkarlıq

Narkotik vasitələr tərəfdaşsız alınmır. İstifadəçi müəyyən müddətdən sonra satıcılarla, kriminala meylli şəxslərlə əlaqəyə girir. Bu mühit hüquqi baxımdan tamamilə kriminal olduğundan, narkotik istifadəçisi özü də cinayət aləminə inteqrasiya olunmağa başlayır. Asılılıq dərinləşdikcə, istifadəçi satıcıya, daşıyıcıya, vasitəçiyə və ya şəbəkənin digər funksiyalarını yerinə yetirən



şəxsə çevrilə bilər. Beləliklə, narkomaniya insanı həm istehlakçı, həm də cinayətkar mexanizmin tərkib hissəsinə çevirir.

### İmpulsiv cinayətlər-risklər, təhlükələr

Narkotik vasitələr beyin kimyasını dəyişdirdiyi üçün insanın özünənəzarəti azalır, aqressiya artır, risk davranışları kəskinləşir, etik və hüquqi sərhədlər, dəyərlər itir, məhv olur. Bu isə qəfil, impulsiv və nəzarətsiz cinayətlərin artmasına səbəb olur. Narkotik təsiri altında adam bıçaqlama, xuliqanlıq, ailədaxili zorakılıq və digər zorakı cinayətlərin potensial risk daşıyıcısı olur. Yəni, narkotik şəxsiyyət üzərindəki nəzarəti zəiflədir və cinayət davranışını sürətləndirir.

Narkomaniya insanların işini, sosial statusunu, ailə münasibətlərini, psixoloji stabilliyini sıradan çıxarır. Asılılığa düşən şəxs həm sosial mühitdən təcrid olur, həm də kriminal şəxslər üçün daha asan manipulyasiya edilən hədəfə çevrilir. Nəticədə o, cinayətin həm icraçısı, həm də qurbanı ola bilər.

### Latent cinayətlər – görünməyən tərəf

Narkomaniya ilə bağlı cinayətlərin böyük hissəsi latent, yəni gizli xarakter daşıyır. Bunların sırasında ailədaxili zorakılıq, narkotik təsiri altında törədilən insidentlər, təhlükəli davranış nəticəsində baş verən hadisələr və qanunsuz dövriyyə kimi faktlar dayanır. Latentlik cinayətkarlığın real ölçüsünü təhrif edir və təhlükənin daha ciddi olduğunu göstərir.

Narkomaniya cinayətkarlığı üç səviyyədə gücləndirir. Birbaşa təsir narkotik almaq üçün pul tapmaq məqsədilə törədilən cinayətlərlə özünü göstərir. Kriminal şəbəkələrlə məcburi təmas və inteqrasiya dolayı, özünənəzarətin zəifləməsi nəticəsində impulsiv cinayətlərin törədilməsi isə psixoloji təsirdən qaynaqlanır.

Bu səbəbdən narkomaniyaya qarşı mübarizə yalnız tibbi yox, həm də sosial və hüquqi mübarizədir. Polis orqanlarının preventiv tədbirləri, cəmiyyətin maarifləndirilməsi və psixoloji reabilitasiya proqramları narkomaniya ilə cinayətkarlıq arasında olan bu təhlükəli zənciri qırmaq üçün əsas strateji alətlərdir.

# DİN təkliflər hazırlayıb

## Sürücülük vəsiqəsi və digər vacib sənədlərin verilməsi rəqəmsallaşdırılır

Daxili İşlər Nazirliyi vətəndaşların gündəlik həyatını asanlaşdırmaq, dövlət xidmətlərinin keyfiyyətini və əlçatanlığını artırmaq, o cümlədən ölkəmizin rəqəmsal transformasiya prosesini sürətləndirmək məqsədilə bir sıra xidmətlərin təkmilləşdirilməsinə dair təkliflər hazırlayıb.



Təkliflərdə şəxsiyyət vəsiqələrinin, ümumvətəndaş pasportlarının və sürücülük vəsiqələrinin alınması və yenilənməsi, həmçinin nəqliyyat vasitələrinin qeydiyyatı üzrə ilkin sənədlərin qəbulu mərhələsinin rəqəmsallaşdırılması nəzərdə tutulmaqla vətəndaşlar həmin xidmətlər üzrə ilkin müraciətlərini dövlət qurumlarına getmədən, onlayn şəkildə də təqdim edə biləcəklər.

Bu təşəbbüs "ölkənin rəqəmsal hökumət" modelinin daha da güclənməsinə, dövlət xidmətlərinin keyfiyyətinin artırılmasına və vətəndaş məmnunluğuna xidmət edəcək, eyni zamanda BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə töhfə verəcəkdir.

# Məktəblilərin polislə tanışlığı

## Şagirdlərə polis peşəsi haqqında məlumat verilib

Gənclərin Daxili İşlər Nazirliyi sistemində təhsilə və xidmətə təşviqi məqsədilə Sumqayıt şəhəri Heydər Əliyev Mərkəzində IX–XI sinif şagirdlərinin iştirakı ilə maarifləndirici tədbir keçirilib.



Tədbirdə Polis Akademiyasına qəbul qaydaları, "Hüquqşünaslıq" və "İnformasiya təhlükəsizliyi" ixtisasları, ödənişsiz təhsil imkanları, yataqxana və geyimlə təminat, yüksək təqaüd, eləcə də polis rütbəsi və xidmət perspektivləri barədə ətraflı məlumat verilib.

Şagirdlər Polis Akademiyasının tədris prosesinə həsr olunan videoçarxı izləyib, daha sonra Sumqayıt Şəhər Polis İdarəsində polis bölmələrinin fəaliyyəti, "Təhlükəsiz Şəhər" sistemi və xüsusi təyinatlı polis əməkdaşlarının təlimləri ilə tanış olublar.

Tədbir gənclərin gələcək ixtisas seçimində polis peşəsinə marağının artırılmasına xidmət edib.

# "Açıq qapı"

## Polis Akademiyasında təhsil mühiti ilə tanışlıq

Sağlam düşüncəli və yüksək intellektli gənclərin ixtisas seçimində Polis Akademiyasına üstünlük verməsinin təmin edilməsi məqsədilə həyata keçirilən növbəti "Açıq qapı" tədbirinin qonağı Zərdab rayonu şagirdləri olub.





Dekabrın 13-də keçirilən "Açıq qapı" tədbiri zamanı məktəblilər tədris korpusları, konfrans zalı, kriminalistik təlim şəhərciyi, "İnformasiya təhlükəsizliyi" fakültəsinin ən müasir texniki avadanlıqlarla təchiz olunmuş elmi-tədqiqat laboratoriyası, təlim mərkəzi, qapalı atıcılıq tiri, yataqxana, "Krosfit" və idman meydançası ilə tanış olublar.

Gənc qonaqlara Akademiyada yaradılmış təhsil mühiti, qəbul qaydaları, kursantların maddi, sosial təminatları və Akademiyada təhsilin üstünlükləri barədə ətraflı məlumatlar verilib, onları maraqlandıran suallar cavablandırılıb.

# Gənclər üçün uğurlu gələcək

## Polis Akademiyası abituriyentləri təhsilə dəvət edir

**Daxili İşlər Nazirliyi Polis Akademiyasına əyani təhsilə III qrupdan “Hüquqşünaslıq” ixtisasına 500, I qrupdan “İnformasiya təhlükəsizliyi” ixtisasına 25 kursantın qəbuluna dair müsabiqə elan edir. Müsabiqədə Azərbaycan dilini sərbəst bilən, boyu 165 sm-dən az olmayan, yaşı 16-dan 18-dək, 11-ci sinifdə oxuyan və ya tam orta təhsilli, həqiqi hərbi xidmətə yararlı olan Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.**









Xüsusi təhsil müəssisəsinə sənədlərin qəbulu 2026-cı ilin fevralın 22-dək namizədin daimi yaşadığı yer üzrə polis idarə və ya şöbələrində həyata keçirilir. Müsabiqədən keçən abituriyentlərin siyahısı “Hüquqşünaslıq” və ya “İnformasiya təhlükəsizliyi” ixtisasları üzrə Dövlət İmtahan Mərkəzinə göndərilir. İmtahanlar azərbaycan və rus dillərində keçirilir.

Qəbul olunan abituriyentlərlə Daxili işlər orqanlarında xidmət keçmə haqqında müqavilə bağlanır. Tədris azərbaycan dilindədir, müddəti 4 ildir. Kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur, Akademiyanın ərazisində yerləşən müasir standartlara tam cavab verən yataqxanada yaşayırlar.

Məzunlara “Hüquqşünaslıq” və “İnformasiya təhlükəsizliyi” ixtisasları üzrə “polis leytenantı” xüsusi və “ehtiyatda olan leytenant” hərbi rütbələri verilməklə DİO-da müvafiq vəzifələrə təyin edilirlər.

**Qəbul qaydaları haqqında daha ətraflı məlumat əldə etmək üçün** (012) 454-12-78, (012) 590-97-76, (012) 590-99-47 nömrələrinə və akademiyanın 88-80 qaynar xəttinə zəng edə, yaxud Nazirliyin, eləcə də təhsil müəssisəsinin internet saytlarına, həmçinin sosial şəbəkələrdəki rəsmi səhifələrinə müraciət edə bilərsiniz.

# Media müsabiqəsi keçiriləcək

## Müsabiqənin təşəbbüskarı MDB iştirakçısı olan dövlətlərin Daxili İşlər Nazirləri Şurasıdır

Müstəqil Dövlətlər Birliyinin (MDB) iştirakçısı olan dövlətlərin Daxili İşlər Nazirləri Şurası 2026-cı il üçün media müsabiqəsinin keçiriləcəyini elan edib. Müsabiqənin məqsədi MDB-yə üzv ölkələrdə media sahəsində yaradıcılıq potensialının dəstəklənməsi və təşviq edilməsidir.

Müsabiqədə MDB-yə üzv ölkələrin daxili işlər nazirliklərində çalışan əməkdaşlar, mülki işçilər, həmçinin iştirak etmək arzusunda olan 18 yaşdan yuxarı bütün şəxslər iştirak edə bilərlər.

Müsabiqə foto və video nominasiyaları üzrə keçiriləcək. Hər bir iştirakçı hər nominasiya üzrə maksimum üç iş təqdim edə bilər. Qaliblərin seçimi müsabiqə təşkilatçıları tərəfindən həyata keçiriləcək.

Müsabiqənin şərtləri, vaxtı, tələbləri və iştirak qaydaları barədə geniş məlumatla Azərbaycan Daxili İşlər Nazirliyinin rəsmi internet saytında və Mütəşəkkil cinayətkarlıqla və cinayətkarlığın digər təhlükəli növləri ilə mübarizə üzrə Əlaqələndirmə Bürosunun (MCMƏB) rəsmi internet saytının müvafiq bölməsinə (https://bkbopcis.ru/galereya/mediakonkurs/) keçid etməklə tanış olmaq mümkündür.

# Polis əməkdaşlarının nəzərinə!

## Qiyabi bakalavr təhsili almaq istəyənlər müraciət edə bilərlər

DİN-in Polis Akademiyasında 2026/2027-ci tədris ili üçün qiyabi təhsilə qəbulla bağlı müsabiqədə - sıravi, kiçik, orta və böyük rəis heyəti vəzifələrində xidmət edən, tam orta, yüksək texniki peşə, orta ixtisas və ya ali təhsili başa vurmaq haqqında müvafiq dövlət nümunəli sənəd almış polis əməkdaşları 2025-ci il dekabr - 2026-cı ilin iyun aylarında əsaslandırılmış raportla Azərbaycan Respublikası daxili işlər nazirinə müraciət etməklə iştirak edə bilərlər.

Raporta namizədin şəxsiyyət vəsiqəsinin, tam orta, yüksək texniki peşə, orta-ixtisas və ya ali təhsil haqqında sənədinin surəti əlavə edilir.

Müraciətlərə Baş Kadrlar İdarəsinin sənəd qəbulu komissiyasında baxılır və ilkin şərtlərə uyğun gələnlərin tədris işlərinin DİN-in Baş Kadrlar İdarəsinə göndərilməsi barədə əməkdaşın xidmət keçdiyi daxili işlər orqanına tapşırıq verilir. Orada onun raportu əsasında tədris işi tərtib edilir və 2026-cı il iyul ayının 15-dək DİN-in Baş Kadrlar İdarəsinə göndərilir.

DİN-in Baş Kadrlar İdarəsi tərəfindən daxil olmuş tədris işləri öyrənilərək müsabiqədə iştirak üçün seçilən namizədlərin siyahısı müəyyən edilir və Azərbaycan Respublikası daxili işlər naziri ilə razılaşdırılaraq Akademiyanın Müsabiqə komissiyasına təqdim edilir.

Əməkdaşlar Polis Akademiyasında keçirilən daxili işlər orqanları əməkdaşları üçün nəzərdə tutulmuş fiziki hazırlıq üzrə normativləri yerinə yetirdikdən sonra Akademiyaya qəbul üzrə müsabiqədə iştiraka buraxılırlar.

Akademiyaya qəbul üzrə müsabiqə informasiya-kommunikasiya texnologiyaları vasitəsi ilə Polis Akademiyasında test üsulu ilə keçirilən qəbul imtahanından ibarətdir.

Tam orta (orta-ixtisas) təhsilli namizədlərlə qəbul imtahanı 100 sualdan ibarət olmaqla (Azərbaycan dili, ədəbiyyat, tarix və coğrafiya fənləri üzrə hər birindən 25 sual), təkrar ali təhsilə namizədlərlə test üsulu ilə qəbul imtahanı 100 sualdan ibarət olmaqla (Azərbaycan dili - 10 sual, ədəbiyyat - 10 sual, tarix - 10 sual, coğrafiya - 10 sual, Konstitusiya hüququ - 40 sual, Polis haqqında Qanun - 10 sual, DİO-da xidmət keçmə haqqında Əsasnamə - 10 sual) üç saat müddətində fasilə verilmədən keçirilir.

Daha ətraflı məlumatı DİN-in Baş Kadrlar İdarəsinin - (012) 590-99-82, 19-82 (daxili), DİN-in Polis Akademiyasının 8880 qaynar xətti, (012) 454-12-78 nömrəli telefonları vasitəsi ilə və ya https://www.pa.edu.az/ internet saytından əldə edə bilərsiniz.

# Boksçumuz tarixə düşdü

## DİN İdman Cəmiyyətinin yetirməsi dünya çempionu olub

Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin yetirməsi Sübhan Mamedov boks üzrə (48 kiloqram) dünya çempionu olub.



Milli komandanın 19 yaşlı idmançısı Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən mundialda bu titula yiyələnib.

Noyabrın sonunda U-23 Avropa çempionatının qalibi olan boksçumuz finalda ermənı əsilli Rusiya təmsilçisi Edmond Xudoyanla qarşılaşıb.

S.Mamedov rəqibini 4:3 hesabı ilə məğlub edərək dünya çempionatının qızıl medalına yiyələnib.

O, bununla da Azərbaycanın boks üzrə ən gənc dünya çempionu kimi tarixə düşüb.

Beləliklə, millimiz 120 ölkənin qatıldığı dünya çempionatını 1 qızıl və 2 bürünc medalla başa vurub. Daha öncə Alfonso Dominqes (92 kq) və Məhəmməd Abdullayev (+92 kq) mundialda 3-cü yeri tutublar.

# Uniformanın yaranması

## Polis formasının tarixi

### İlk polis qüvvələrinin yaranışı

Tarixdə hüquq-mühafizə orqanlarına bənzər strukturlar qədim dövrlərdən mövcud olsa da, müasir anlamda polis qurumlarının formalaşması 18–19-cu əsrlərə təsadüf edir. O dövrə qədər hüquq-mühafizə tədbirləri əsasən krallıq qoşunları, yerli idarələr və ya könüllülər tərəfindən həyata keçirilirdi. Amma şəhərlərin böyüməsi, sənayeləşmə və əhali sıxlığının artması ilə birlikdə mütəşəkkil və peşəkar polis orqanlarına ehtiyac yarandı.

### İlk rəsmi polis forması: London Metropoliten Polisi

Müasir polis formasının yaranması 1829-cu ildə İngiltərədə, Robert Pilin təşəbbüsü ilə yaradılmış London Metropoliten Polisi ilə bağlıdır. Bu, dünyada peşəkar polisin ilk rəsmi formalaşmış nümunəsi sayılır. Robert Pil qanunun aliliyini qoruyacaq, vətəndaşlara xidmət edəcək və onların etibarını qazanacaq bir qurum yaratmaq istəyirdi.



Bu yeni polis qüvvəsi üçün xüsusi forma hazırlanmışdı. Uniforma mavi rəngdə idi və məqsədli şəkildə ordunun qırmızı geyimindən fərqlənirdi. Çünki polis xalqın içində xidmət edən sivil qüvvə olmalı idi. Bu forma insanlarda qorxu yox, inam hissi yaratmalı idi.

### Formanın əsas xüsusiyyətləri nədən ibarət idi?

İlk polis formasına silindrik papaq, tünd mavi palto və dəmir düymələr daxil idi. Polislər silah daşımır, əvəzinə ağac dəyənəklə təchiz olunurdular. Həmçinin bədənlərinə taxılan nömrə nişanı onların şəxsiyyətini müəyyən etməyə imkan verirdi. Bu, şəffaflıq və hesabatlılıq üçün çox mühüm addım idi.

### Formanın simvolik anlamı

Robert Pilin əsas prinsiplərindən biri bu idi: “Polis xalqdır, xalq isə polisin özü.” Bu səbəblə forma yalnız geyim deyil, bir etimad simvolu idi. Polis forması geyinmiş şəxsin davranışı həm özünü, həm də bütün orqanı təmsil edirdi. Uniforma həm məsuliyyət, həm də nüfuz daşıyırdı.

İngiltərədəki uğurlu model qısa zamanda başqa ölkələrin də diqqətini çəkdi. 19-cu əsrin ortalarından başlayaraq ABŞ, Kanada, Avstraliya, Fransa və Almaniyada da oxşar sistemlər yaradıldı. Hər ölkə özünə uyğun forma dizayn etdi, lakin London Metropoliten Polisi bu sahədə bir örnək oldu.

### Forma nümunə kimi bütün dünyada yayıldı

Əvvəlki formalar çox zaman hərbi tərzdə hazırlanırdı. Lakin zamanla anlayış dəyişdi və polis formaları mülki əhaliyə yaxın olmaq, cəmiyyətin bir parçası kimi görünmək üçün daha yumşaq, rahat və sakit rənglərdə hazırlandı. Bu dəyişiklik hüquq-mühafizə orqanlarının cəmiyyətdəki rolunun və imicinin də dəyişməsindən qaynaqlanırdı.

Zamanla dəyişən təhlükəsizlik tələbləri və texnologiyanın inkişafı polis formalarının da funksional cəhətdən təkmilləşməsinə səbəb oldu. Bu gün formalar nəfəs alan, yüngül və davamlı materiallardan hazırlanır, iqlimə uyğun şəkildə dizayn edilir. Onlara güllə keçirməz jiletlər, bədən kameraları və müxtəlif taktiki avadanlıqlar əlavə olunur. Bütün bu yeniliklərin məqsədi polis əməkdaşının daha təhlükəsiz, çevik və peşəkar şəkildə fəaliyyət göstərməsini təmin etməkdir.

*Aytən Tahirova*

# Polisin ən sərrastları

## Güllə atıcılığı üzrə birincilər bəllidir

Daxili İşlər Nazirliyinin güllə atıcılığı üzrə çempionatı keçirilib. Yarışda ümumilikdə 16 komanda müxtəlif hərəkətlər üzrə sərrastlıqlarını sınayıb.

Gərgin keçən yarışlarda iştirakçılar arasında qaliblər müəyyənləşib.

Şəxsi yarışın 1-ci tapşırığında birinci yerə Bərdə RPŞ-nin əməkdaşı Vüsal Bayramov, ikinci yerə Şirvan RPŞ-dən Ümid Ağayev, üçüncü yerə isə Daxili Qoşunların Baş İdarəsindən Rövşən Həsənov layiq görülüb.

3-cü tapşırıq üzrə birinci yeri Daxili Qoşunların Baş İdarəsinin əməkdaşı Rövşən Həsənov tutub. İkinci yerdə Sumqayıt ŞPİ-dən Ramin Quliyev, üçüncü yerdə isə Sumqayıt ŞPİ-dən Bəxtiyar Xəlilov qərarlaşıb.

6-cı tapşırıqda birinci yeri Daxili Qoşunların Baş İdarəsinin əməkdaşı Elcan Babayev əldə edib. İkinci yerə Elşən Əlməmmədov, üçüncü yerə isə Polis Akademiyasından Runel Şahverdiyev layiq bilinib.

Komanda hesabında isə Sumqayıt Şəhər Polis İdarəsinin komandası birinci, Daxili Qoşunların Baş İdarəsi ikinci, Polis Akademiyası isə üçüncü yerə layiq görülüb.

Sonda qaliblərə medallar, diplomlar və kubok təqdim olunub.

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

MƏSUL ŞƏXS: ELŞAD HACIYEV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik